

■ Əli Şirin Şükürlü

### V şəklində uçuş - azadlığın fəlsəfəsi

Qadın həbsxanası...
Tikanlı məftilə qonan quş
birdən pırr edib uçdu
məhbus qadınların gözləri qarşısında
və qəfil uçuşun arxasınca yüyürdü baxışlar.

Doğrusu, mən nə məhbus qadınları,
nə də onların baxışlarını gördüm.
Mən həbsxana divarının yanından ötərkən
bir quşun ürküb tikanlı məftildən
aralandığının şahidi oldum və qəfil uçuşun arxasınca
yüyürən baxışlar barədə düşündüm qeyri-ixtiyari:
elə şeylər var o qədər aşkar ki, isbat olunmaz.
Sonra ayaq saxlayıb,
V şəkilli uçuşları seyr etdim bir qədər: V V V ...
hər biri ayrılıqda
bir uçağı xatırladar səmada həm də.

Və
azadlığın əsl fəlsəfəsini anladım:
azadlıq vərdiş imiş, demə,
hər yaranmışda olmayan bacarıq -
başqa heç nə.
Məsələn, quşların uçmaq vərdişi kimi.

### Sahibsiz ev və vaxtın səsə çevrilməsi

Vaxtiylə bu evin sahibini tanıyırdım,
indi qarşısında dayandığım
üçmərtəbəli evi deyirəm.
Gülərüz, şən adam idi - həyatla dolu.
Arabir kədər sezilərdi gözlərində
pəhləvan cüssəli bu adamın.
Qəfil dünyasını dəyişdi.

Hazırda heç kim yaşamır evdə.

Yaxın qohumlarından biri
binanın qarşısındakı ağacları sulayırdı
mən binanın yanından keçərkən.
Saralmış yarpaqları, çürümüş meyvələri
süpürürdü bir qadın küçədən.
Səs dəyir qulağıma: çıq. çıq. çıq ... Yadıma düşür,
dəhlizdə iri bir saat asılmışdı divardan. Fikirləşirəm:
saat işləyir hələ də.

Vaxtı səsə çevirir saat,
səs dalğa şəklində yetirir özünü mənə.
Beləcə, hər bir şey ya ani, ya da tədricən
çevrilir başqa bir şeyə "yoxolma" adıyla.

Uzaqlaşdıqca gözdən itir bina, ağaclar,
ağac sulayan kişi, küçə süpürən qadın... mənzərənin
ağ-qara təsviri köçür yaddaşıma, qulağımda hələ də
saatın çıqqıltısı - vaxtın möcüzə dolu harmoniyası.

### Foto: metafizik düşüncə

Mənim şəklimdi. Pəncərə qarşısında dayanmışam.
Pəncərədən ağac görünür, yarımçıq.
Neçə yaşım var orda o zaman, dəqiq deyə bilmərəm.
Orda o zaman nə düşünürəm, indi xatırlamıram.
Yarımçıq ağac təsviri; yarımçıq təsvir varsa,
demək, ağac ya tam olub nə vaxtsa,
ya da elə tamdı, şəkildə yarımçıq düşüb, sadəcə.

İndi isə baxıb şəklə düşünürəm, hər şey
pəncərənin o şəkildə yarımçıq göstərdiyi ağac kimi
yarımçıqdı: nəyi nə qədər görüb, nə qədər anlayırıqsa,
elə o qədərdi, inan və başqa ölçü axtarma israrla.
Nə varsa ətrafda, yalnız və yalnız
biz ona baxıb gördüyümüz zaman mövcuddu təkcə:
yum gözlərini, hər şey itəcək bir anın içində
bulanıq təsviri təsəvvüründə,
aç indi, hər şey yenidən canlanacaq.

O şəkildən üzü bəri zaman-məkan içində
çox hadisələr ardıcıl canlanır yaddaşımda:
bəzisi sürətlə, tez-tələsik ötüb keçir, bəzisi asta-asta.
Amma bütün yaşananlar ilişib qalıb, hələ də
ayrı-ayrı zaman parçalarında - işdi, geri qayıda bilsə,
üz-üzə gələr adam öz-özüylə, qarşılaşar keçmiş gələcəklə.
Maraqlıdı, zənn edək, tanıyıb bir-birini
keçmiş və gələcəkdə yaşayan eyni adam ayaq saxladı,
sonra?.. Yoxsa ötüb keçərlər yad adamlar kimi,
fikir vermədən bir-birinə?
...

Əgər o şəkil canlı bir mənzərəyə çevrilsə qəfil və
mən üzümü çevirsəm, pəncərə də itəcək dərhal, ağac da.
O vaxt o otağı yaxşı tanıdığımdan
öncə qapını görəcəyəm, bilirəm; qapı - təkcə otaqdan deyil,
bəzən elə özümüzdən çıxıb getmək üçün bir vasitə.
Sonra başqa mənzərə açılacaq qarşımda,
yeni mənzərə - tam (bu da bir aldanış, əslində)
və yarımçıq təsvirlərdə.

Əgər o şəkil canlı mənzərəyə çevrilsə qəfil və
mən indi burdan seyr etsəm o mənzərəni,
o zamandakı mən də çönüb ordan baxsa mənə
və nəsə soruşsa, mən də cavab versəm həvəslə,
dəyişən bir şey olarmı fəzanın geriyə buraxdığı
zaman-məkan müstəvisində. Yəni,
o məndən bu mənə yaşananlardan
nəyisə dəyişmək olarmı, görəsən? Və nəyi?..

İndi bildiniz nə demək istəyirəm bayaqdan bəri?

### Metro

Dayanıb metronun qarşısında
seyr edir - qarşısında mənzərə canlı mənzərə:
adamlar tələsir, ləngiyir,
nə tələsir, nə də ləngiyir
canlı mənzərədə.

Biri metroya girir. Ekskalator boyu üzü aşağı - yox olur.
Çıxır metrodan biri üzü yuxarı - dəf edir yoxluğu.

Gedir yeraltı keçidə doğru - tədricən gözdən itir.
Çıxır yeraltı keçiddən - hissə-hissə bərpa olunur.

Gözəl bir qız yeriyir asta-asta, - üzündə məmnunluq.
Yanında bir gənc - başı əyilmiş qıza sarı.
Sevgi var bu ləngimədə.

Qoca - zorla yeriyir. Diqqətlə baxır
yanından keçənlərə, üzündə ümidsizlik.
Ölüm yağır bu ləngimədən.

Yeyin addımlarla üz alıb metroya
zövqlə geyinmiş gözəl qadın.
Üz-gözündən həyat yağır,
həyat yağır tələsmədən.

Metrodan çıxıb harasa tələsir,
qalstuk taxıb, orta yaşlı. Qorxur gecikməkdən.
Yaşamaq gizlənib bu tələsmədə.

Qaçıb sürətlə keçir metronun qarşısından
kimsəyə fikir vermədən. Nə qocadı, nə cavan, -
özündən razı. Amma
ölüm boylanır tələsmədən.

Bəs o kimdi (nədi) -
obyektiv varolma, gözəgörünməz.
Nə həyata tələsir, nə də ölümə.
Nə ölümə ləngiyir, nə də həyata.

Paralel talelərin
kəsişmə nöqtəsidi metro, -
maraqlı, həm də kədərli əsrarəngiz mənzərə,
dayanıb seyr edəsən vaxtı vecinə almadan.

Bilirəm
bilirsən, bilir, bilirlər:
yaşanan hər an gecikməsidi ölümün.

### Qoşa məzar

Gözəl qız idi.
Çox idi onu sevənlər.

Bir gün qız da sevdalandı -
yoluxdu sevgiyə yaxşıca.
Sevib-seçdiyi oğlan da
çox iztirablar keçirmişdi
qazanınca gözəl qızın sevgisini.

Zaman da ləyaqətlə görür işini:
sevgini də udur, cırmaqlayır gözəlliyi də ...

Oğlan - o gözəl qızın əri
əvvəlcə günləri, sonra ayları, sonra da illəri
sərf etdi ötəri sevgilərə. Heç nə qalmadı ona
ötəri sevgilərdən - adda-budda xatirələrdən savayı.
Qocaldı və öldü.

Gözəl qız - sevimli ərin arvadı
bir dəfə də söz açmadı xəyanətdən,
getdikcə çoxalan və gözəlliyinə asta-asta
kölgə salan soyuqluqdan.
Qurban verdi gözəlliyini
əvvəlcə illərə, sonra aylara, sonra da günlərə.
Yoluxduğu sevgiylə birgə qocaldı dəyanətlə və öldü.

Ortayaşlı bir kişi dayanıb
qoşa məzarın qarşısında:
bu atamdır, bu anam - deyir dostuna.

Hansını daha çox sevirdin? -
Dostu, adətən, uşaqlara verilən sualla
zarafatyana müraciət edir ona.

O isə duruxur, cavab yerinə
gülümsəyir sadəcə. Uşaq vaxtı
bu suala şəstlə "anamı" deyə verdiyi cavab
və anasının özünü sındırmasa da, iztirabdan
saralmış bənizi düşür yadına.

Bu vaxt
anası qucaqlayıb onu,
"oğlum atasını da çox sevir" - demişdi.

### Riyazi poeziya silsiləsindən minimalist şeirlər

*1. düz xətt*

nə əvvəli, nə axırı var:
hər addım iki nöqtə qeyd edər üstündə
zamanın.

*2. mütənasiblik*

adamlar
tərk edib onu kənara çəkilirdi ...
o öz içinə.

*3. dördbucaqlı*

fotolar -
donmuş məkan və zaman
salınıb çərçivəyə.

*4. dairə*

özüylə başladı həyat,
özündə bitdi.

*5. sıfır*

heç nə yox olmur:
yenidən başlanır hər şey.

*6. şüa*

dayandığın nöqtədə hayana çönsən
sonsuzluq açılar üzünə.

*7. parça*

bir ömür -
iki ədəd arasında məsafə.